# ETİMADI DOĞRULTMAQ ƏZMİ...

Bu gün Daxili Qoşunların sıralarında onun formalaşdığı dövrdən xidmət edən, döyüş yolu keçmiş hərbi qulluqçularımız var. Belə hərbi qulluqçuların keçdiyi yol maraqlı məqamlarla zəngindir.

Uzun illər tanıdığım, ilk dəfə ön cəbhədə tanış olduğum gizir Rüstəm Qafurov 25 ilə yaxındır ki, Daxili Qoşunların hərbi qulluqçusudur. O, 28 sentyabr 1973-cü ildə Sumqayıt şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra bir müddət hərbi aviasiya zavodunda işləyib. 1992-ci ilin iyul ayında hərbi xidmətə çağırılıb və Daxili Qoşunların 5477 saylı (hazırda 17072 saylı hərbi hissə) hərbi hissəsinin sıralarına qəbul olunub. Həmin mürəkkəb və qarışıq dövr hamı üçün bir sınaq idi. Milliyyətcə tatar olan Rüstəm o məqamda respublikada qalmaq və hərbi xidmət borcunu yerinə yetirmək qərarını verməklə, doğulub boya-başa çatdığı vətəninə sədaqət nümunəsi göstərib.

Xüsusi qeyd etmək yerinə düşər ki, onun babaları İkinci Dünya Müharibəsində faşistlərə qarşı dəyanətlə vuruşub. Bir babası - Kayum Qafurov Berlinədək döyüşlərdə iştirak edib.

Gizir R. Qafurov 1993-1994-cü illərdə Ağdərə, Ağdam və Füzuli rayonları ərazisində döyüş yolu keçib. Müharibə reallıqları, döyüşçü yoldaşlarının ölümü və yaralanmasının sarsıntısını yaşamağın acıları yaddaşında dərin iz qoyub. Əsgər olaraq səngərlərdə döyüş anları yaşayıb. Ancaq bütün bunlara dözümlə yanaşıb. 1993-cü



ilin mart ayından Ağdamda 67987 saylı hərbi hissənin tərkibində xidmətini davam etdirib. Dəqiqliyi, icraçılığı nəzərə alınaraq bir müddət hərbi hissənin qərargahında nizami hissənin fəaliyyətinə mirzə kimi cəlb olunub. 1994-cü ilin noyabrında isə öz arzusu ilə müddətdən artıq hərbi xidmətə keçirilib və ona çavuş hərbi rütbəsi verilib.

1997-ci ilin iyul ayından o, Daxili Qoşunların Baş İdarəsində kadrlar şöbəsində xidmət edir. Əvvəlcə karguzar, 1999-cu ildən isə məsul icraçı vəzifəsini yerinə yetirir. Ona gizir hərbi rütbəsi 2008-ci ildən verilib.

Uzun illər bir xidmət sahəsində fəaliyyət göstərmək həm təcrübə, həm də göstərilən etimadı doğrultmaq deməkdir. Çalışqanlıq, vəzifə borcuna məsuliyyətlə yanaşma, hərbçi ciddiliyi, intizamlılıq, təmkin gizir R.Qafurovu fərqləndirən cəhətlərdir.

Gizir R.Qafurov 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Hərbi xidmətlərə görə” medalı ilə təltif edilib. O, “Qüsursuz xidmətə görə” medalının hər üç dərəcəsinə layiq görülüb. Bununla yanaşı, Daxili Qoşunların “Xidmətdə fərqləndiyinə görə” döş nişanı ilə mükafatlandırılıb.

2005-ci ildə Daxili Qoşunlar Günü münasibətilə Azərbaycan Respublikası Prezidentinin iştirak etdiyi təntənəli mərasimdə ona Daxili Qoşunların Baş İdarəsinin döyüş bayrağının bayraqdarı olmaq etibar edilib. Həmçinin o, Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə hərbi paradda iştirak etmiş hərbi qulluqçulardan biridir.

O, Daxili Qoşunların Baş İdarəsində gizirlər şurasının sədridir. Bu onun gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular arasında hörmət və nüfuza malik olduğunu göstərir. Onun müsbət keyfiyyətləri, xidmətdə, döyüş və mənəvi-psixoloji hazırlığında əldə etdiyi uğurlar gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular üçün örnəkdir.

**Y.Abbasov**

# TƏLİMATÇI-PSİXOLOQUN UĞURLU FƏALİYYƏTİ

Günümüzdə psixoloqlara çox ehtiyac olduğu kimi, psixologiya və psixoloqlar haqqında maariflənməyə də ehtiyac böyükdür. Hər bir insan ilk növbədə psixologiyanın nə olduğu haqqında az da olsa məlumatlanmalıdır. Psixologiya nədir? Psixoloq kimdir?




Psixoloq - özünü unutmuş, qarşıdakı insanın psixi zonasına, yəni ruhi zonasına girməyi bacaran, bir sözlə, hadisə və həyatın gedişatına həmin insanın ağlı, gözü və səviyyəsi ilə baxmağı bacaran bir mütəxəssisdir.

Gündəlik həyatda bu mütəxəssislərin tövsiyələri nə qədər önəm daşıyırsa, müasir ordu sistemində də psixoloqların fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Artıq bir neçə ildir ki, Daxili Qoşunların hərbi hissələrində təlimatçı-psixoloqlar fəaliyyət göstərir. Bu gün onların hərbi qulluqçularda ruh yüksəkliyinin formalaşmasında, eyni zamanda mənəvi-psixoloji durumlarının qoşunlar komandanlığının tələb etdiyi səviyyədə qorunub saxlanılmasındakı rolu danılmazdır.

Bu çətin, məsuliyyətli işin, habelə xidməti vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçularımızdan biri də 12318 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq leytenant Aygül Dadaşovadır.

O, şəxsi heyətin psixoloji durumuna cavabdehdir. Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətini dərindən öyrənir, hərbi hissədə sağlam mənəvi mühitin yaradılması üçün mütəmadi olaraq hissə və bölmələrdə söhbətlər aparır. Nəzarət qrupuna daxil edilən hərbi qulluqçuların siyahılarını hazırlayaraq aidiyyəti üzrə bölmə komandirlərinə təqdim edir. Xüsusi diqqətə ehtiyacı olan hərbi qulluqçuların ilkin psixoloji vəziyyətinin analizi nəticəsində əgər müştərək fəaliyyətə ehtiyac duyulursa, bu zaman bölmə komandiri ilə birgə fəaliyyət aparır və işin hansı istiqamətdə görülməsini onunla birgə qərarlaşdırır.

Döyüş xidmətinə, yəni hərbi hissənin müdafiə və mühafizəsinə cəlb olunan komendant bölüyünün hərbi qulluqçuları ilə gündəlik olaraq həm kollektiv, həm də fərdi söhbət aparır.

Leytenant A.Dadaşova əlverişli xidmət və qarşılıqlı əlaqələrin formalaşması məqsədilə şəxsi heyətlə qrup halında müxtəlif mövzulara toxunur, onların döyüş ruhunun yüksək səviyyədə qalması üçün səylə çalışır. O, bundan sonra da bütün qüvvəsini, bilik və bacarığını bu istiqamətdə səfərbər edəcəyini söyləyir.

Biz də “Əsgər” qəzeti olaraq hərbi qulluqçumuza xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**baş leytenant T.Əlizadə**

## NÜMUNƏVİ XİDMƏT

Bu gün Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçular arasında istedadları ilə fərqlənənlər kifayət qədərdir. 16077 saylı hərbi hissənin əsgəri Orxan Rəcəbov də onlardan biridir.



O, 1996-cı il sentyabrın 3-də Sumqayıt şəhərində anadan olub. 2012-2016-cı illərdə Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən İnşaat Kollecində ali təhsil alıb. Təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılan əsgər O.Rəcəbov 2016-cı ilin iyul ayından Daxili Qoşunların sıralarındandır. 16077 saylı hərbi hissənin motoatıcı bölməsində xidmət edir.

O, nizam-intizamı və nümunəvi xidməti ilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularındandır. Verilən bütün tapşırıqların öhdəsindən layiqincə gəlir. Mənəvi keyfiyyətləri ilə həm əsgər yoldaşlarının, həm də komandirlərinin dərin rəğbətini qazanan hərbi qulluqçumuz eyni zamanda, istedadlı rəssamdır. Sənətinin son dərəcə vurğunu olan Orxan daha çox vətənpərvərlik mövzusunda rəsmlər çəkməyə üstünlük verir. Bu da əlbəttə ki, onun Vətənə olan sevgisindən irəli gəlir. Lakin onun başqa mövzularda da rəsm əsərləri çoxdur. Hərbi qulluqçumuzun mükafatları da az deyil. Belə ki, o, 2010-cu ildə “Socar” şirkətinin keçirdiyi ekologiyaya aid sərgidə birinci yerə layiq görülüb. Həmçinin, Rusiyada sərbəst mövzuda keçirilən Yuneskonun gənc rəssamlar sərgisinin qalibi olub.

İstedadlı hərbi qulluqçumuz komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb.

16077 saylı hərbi hissənin digər nümunəvi hərbi qulluqçusu isə əsgər Elnur Süleymanlıdır.

O, 1995-ci il mayın 5-də Şəki rayonunun Baş Zəyzid kəndində doğulub. 2012-2016-cı il Azərbaycan Texniki Universitetinin “Elektroenergetika” fakültəsində təhsil alıb.



2016-cı ilin iyulundan hərbi hissənin motoatıcı bölməsində atıcıdır.

Hərbi xidmətin çətinliklərinə baxmayaraq, verilən tapşırıqların öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz ona göstərilən etimadı hər zaman doğrultmağa çalışır.

Hərbi hissədə ciddi intizamın hökm sürdüyünü, hərbi qulluqçuların Vətənə sevgi ruhunda tərbiyə olunduğunu söyləyən əsgər E.Süleymanlı Daxili Qoşunların sıralarında Vətənə xidmət etməkdən qürur duyduğunu bildirir.

**baş leytenant X.Hacızadə**

# ŞƏXSİ HEYƏTİN MAARİFLƏNDİRİLMƏSİ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

16077 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsində kitabxana rəisi-kitabxanaçı çavuş Vəfa Kərimova işinə məsuliyyətlə yanaşan hərbi qulluqçularımızdandır. O, 1988-ci il yanvarın 2-də Yevlax rayonunun Yuxarı Qarxun kəndində anadan olub. 2005-2008-ci illərdə Ağdaş Dövlət Humanitar Kollecində ibtidai metodika ixtisası üzrə təhsil alıb. 2011-ci ilin avqust ayından Daxili Qoşunların sıralarında hərbi xidmətə başlayıb.

Şəxsi heyətin hərbi vətənpərvərlik, ümumbəşəri dəyərlər və xalqımızın milli tarixi ənənələri ruhunda tərbiyə edilməsinin hərbi hissə komandanlığı tərəfindən



mütəmadi olaraq nəzarətdə saxlanıldığını bildirən çavuş V.Kərimova bu istiqamətdə müvafiq təbliğat işinin aparıldığını da söylədi. Təbliğat zamanı həmçinin bədii ədəbiyyatla yanaşı, müxtəlif qəzet və jurnallardan da istifadə olunur. Bildirdi ki, gün ərzində fonda daxil olan kitabların yüksək bədii və mənəvi keyfiyyətlərə malik olması yoxlanılır. Kitabxana rəisi kitabxana fondunun müxtəlif elmi və bədii ədəbiyyat nümunələri ilə zənginləşdirilməsi üçün də əlindən gələni əsirgəmir. Hərbi hissənin şəxsi heyəti də bu işdə olduqca aktivdir.

Vaxtaşırı kitabxanada hesabatların aparılması da onun funksional vəzifələrinə daxildir.

Çavuş V.Kərimova mütaliənin istənilən yaşda insanın daxilən zənginləşməsində, onun mənəvi keyfiyyətlərinin formalaşmasında mühüm rol oynadığını, bu baxımdan şəxsi heyətin maarifləndirilməsinin hissə komandanlığı tərəfindən daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olduğunu diqqətə çatdırdı.

**baş leytenant X.Hacızadə**

# YOL HƏRƏKƏTİ QAYDALARINI NİZAMLAYAN NİŞANLARIN MƏNALARI

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, yol hərəkəti qaydalarını nizamlayan bir sıra siqnal, nişanlar mövcuddur. Onları sizə təqdim edirik:

### *Nizamlayıcının siqnalları*

I Yollarda, yolayrıcılarında və digər yerlərdə yol hərəkəti qaydalarına nəzarəti həyata keçirmək, yol hərəkətinin gərginliyinə yol verməmək və ya onu aradan qaldırmaq üçün nizamlayıcı siqnallarından istifadə olunur (2 saylı Əlavə).

II Nizamlayıcının siqnallarının aşağıdakı mənaları vardır:

1) Bütün nəqliyyat vasitəsi sürücülərinə və piyadalara aid olan siqnallar:

a) "Diqqət. Hərəkət dayandırılsın" siqnalı hərəkəti qadağan edir, lakin siqnal verilərkən yolayrıcında olan sürücülərə və piyadalara hərəkətlərini davam etməyə icazə verir;

b) "Müəyyən istiqamət üzrə hərəkət" siqnalı nizamlayıcının sinə və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin və piyadaların hərəkətini qadağan edir, sol və sağ tərəfindən gələn tramvayların düzünə, relssiz nəqliyyat vasitələrinin düzünə və sağa hərəkət etməsinə, sinə və arxa tərəfindən isə piyadalara yolun hərəkət hissəsini keçməyə icazə verir;

v) "Sola dönmə" siqnalı nizamlayıcının sol tərəfindən gələn tram-vayların sola dönməsinə, relssiz nəqliyyat vasitələrinə bütün istiqamətlərdə hərəkət etməyə, sinə tərəfindən gələn nəqliyyat vasitələrinə sağa dönməyə, arxa tərəfindən piyadalara hərəkət hissəsini keçməyə icazə verir, sağ və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin hərəkətini isə qadağan edir;

2) Konkret nəqliyyat vasitəsi sürücüsünə və piyadaya aid olan siqnallar:

a) "Sürəti azaldın" siqnalı nizamlayıcı əl ilə yuxarı-aşağı hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətini azaldılmasını tələb edir;

b) "Sürəti artırın" siqnalı nizamlayıcı əli ilə üfiqi vəziyyətdə (saat əqrəbi istiqamətində) dairəvi hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitələrinin sürətini artırmaq, piyadalardan isə yolu keçməsini tezləşdirməyi tələb edir;

v) "Dayanın" siqnalı nizamlayacı tərəfindən hər hansı nəqliyyat vasitəsinə tərəf yönəldilmişdirsə, onun sürücüsündən öz nəqliyyat vasitəsini yolun hərəkət hissəsinin kənarında dayandırmasını tələb edir.

III Müstəsna hallarda (yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə təxirə salınmayan tədbirlərin görülməsi üçün zərurət yaranarsa), nizamlayıcı bu maddənin ikinci hissəsində göstərilən siqnalların mənalarından fərqli olaraq yol hərəkəti iştirakçılarına aydın olan digər siqnalları verə bilər.

IV Bu maddədə nəzərdə tutulmuş siqnalları verərkən, nizamlayıcı fitdən də istifadə edə bilər.

V Nizamlayıcı elə yerdə dayanmalı və elə təchiz edilməlidir ki, yol hərəkəti iştirakçıları onun tərəfindən verilən siqnalları sutkanın işıqlı və qaranlıq vaxtı seçə bilsinlər. Bu məqsədlə sutkanın qaranlıq vaxtında nizamlayıcı işıq düşən yerdə dayanmalıdır və ya istifadə edilən jezl işıq saçan və yaxud işıq verən olmalıdır.

### *Svetoforun siqnalları*

I Yollarda, yolayrıclarında və digər yerlərdə yol hərəkətini nizama salmaq üçün svetoforlardan istifadə olunur. Svetoforların vasitəsi ilə verilən siqnallarda yaşıl, sarı, qırmızı və ağ-sarımtıl rənglər tətbiq edilir (3 saylı Əlavə).

II Təyinatından asılı olaraq svetofor siqnalları dairəvi formalı, ox (oxlar), piyadanın və ya velosipedin silueti şəklində və X formalı ola bilər. Dairəvi siqnallı svetoforların yaşıl ox (oxlar) şəklində bir və ya iki əlavə bölməsi ola bilər: həmin bölmələr dairəvi yaşıl siqnalın səviyyəsində yerləşdirilir.

III Svetoforun dairəvi siqnallarının aşağıdakı mənaları vardır:

1) yaşıl rəngli işığın yanması - bu siqnal hərəkətə icazə verir;

2) yaşıl rəngli işığın yanıb- sönməsi - bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq (yaşıl siqnalın sönməsinə qədər qalan müddəti sürücülərə bildirmək üçün rəqəmli tablo tətbiq edilə bilər);

3) sarı rəngli işığın yanması - bu siqnal hərəkəti qadağan və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir;

4) sarı rəngli işığın yanıb-sönməsi - hərəkətə icazə verir və nizamlanmayan yolayrıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir;

5) qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi - bu siqnal hərəkəti qadağan edir;

6) qırmızı və sarı rəngli işıqların eyni vaxtda yanması - bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

IV Svetoforun oxlar şəklində qırmızı, sarı və yaşıl rəngli işıqlarının mənası müvafiq rəngli dairəvi işıqların mənası ilə eynidir, lakin onların qüvvəsi yalnız oxlarla göstərilən istiqamətə (istiqamətlərə) şamil edilir. Həm də sola dönməyə icazə verən ox, müvafiq yol nişanının geriyə dönməyi qadağan etmədiyi hallarda, geriyə dönməyə də icazə verir. Əlavə bölmədəki yaşıl oxun da mənası belədir. Əlavə bölmənin işığının sönməsi bu bölmənin nizamladığı istiqamətdə hərəkətin qadağan edilməsi deməkdir.

V Svetoforun əsas yaşıl işığının üstünə qara konturlu ox (oxlar) çəkilmişsə, bu, sürücülərə svetoforun əlavə bölməsinin olduğunu bildirir və əlavə bölmənin işığında göstəriləndən fərqlənən digər istiqamətlərdə hərəkətə icazə verir.

VI Svetoforun işığı piyada (velosiped) silueti şəklindədirsə, onun qüvvəsi yalnız piyadalara (velosipedçilərə) şamil edilir. Bu zaman yaşıl işıq piyadaların (velosipedçilərin) hərəkətinə icazə verir, qırmızı işıq isə onların hərəkətini qadağan edir. Velosipedçilərin hərəkətini nizamlamaq üçün həmçinin, dairəvi işıqları olan kiçik ölçülü svetoforlardan da istifadə edilə bilər; həmin svetoforlara üzərində qara rəngli velosiped təsviri olan 200/200 mm ölçüdə ağ rəngli düzbucaqlı lövhə əlavə olunur.

VII Kor piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün svetoforun işıq siqnallarına səs siqnalı da əlavə edilə bilər.

*(davamı gələn sayımızda)*

**TƏSİSÇİ:**
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 11 (502)
31 may 2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# BAKIDA YÜKSƏK TƏŞKİLATÇILIQLA KEÇİRİLƏN IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI BAŞA ÇATDI

### *75 qızıl medala sahib olan Azərbaycan millisi iştirakçı ölkələri geridə qoyaraq mütləq rekorda imza atıb*

***Mayın 22-də Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları başa çatdı. Paytaxtımızda təşkil olunan yarışa tennisçilərin mübarizəsi ilə yekun vurulub. Bununla da İslamiadada 268 dəst medal öz sahibini tapıb. 11 gün ərzində 269 qızıl, 267 gümüş, 350 bürünc, ümumilikdə, 886 mükafat 40 ölkə təmsilçisi arasında bölüşdürülüb. Yarışa qatılan 14 ölkənin komandası isə Bakı-dan əliboş qayıdıb. Bu medallardan 162-si Azərbaycan idmançılarının payına düşüb.***

Ümumi medal sayında Türkiyədən (195) geri qalmasına baxmayaraq, medalların əyarına görə yığmamız İslamiadanın qalibi olub. Bununla da ölkəmiz tarixində ilk dəfə multiidman tədbirinin ən güclüsü adına yiyələnib. İndiyədək ən yaxşı nəticəmiz 2 il öncə Avropa Oyunlarında 2-ci pillədə qərarlaşmağımız idi. Azərbaycan millisi həm də İslamiadaların ənənəsini davam etdirib. Belə ki, Səudiyyə Ərəbistanı 2005-ci, İndonezi-ya 2013-cü ildə təşkil etdiyi Oyunların qalibi olmuşdu. Lakin qızıl medal sayında həmin ölkələri də geridə qoyan Azərbaycan mütləq rekord müəyyənləşdirib. 75 çempionluq yaşayan millimiz İslamiadalar tarixinin görünməmiş nəticəsinə imza atıb. Türkiyə millisinin qazandığı 195 medal da tarixə rekord kimi düşüb. Ümumilikdə, yığmamız 75 qızılla yanaşı, 50 gümüş və 37 bürünc medal sevinci də yaşayıb. İkinci olan Türkiyə bizdən 4 qızıl az alıb. İlk “üçlüy”ü 98 mükafatla İran qapa-yıb. Yığmamızın birinci olmasında döyüş növlərinin rolu böyükdür. Komandamızın hesabına ən çox medalı cüdoçular (paracüdo) yazdırıb. Bu siyahıda güləş ikincidir. Həmçinin taekvondo, boks, karate növləri də birinci olmağımıza töhfəsini verib. Medal sayında üçüncü olan atletikadır (paraat-letika). İslamiadada komanda idman növlə-rində də yetərincə medal qazandıq. Basketbolçular, voleybolçular və futbolçular mübarizələrini mükafatla başa vurublar. Həndbol yığmamız isə 2 medaldan birinə sevinə bilib. İdmançılarımız yalnız su polosu və tennisdə medal qazana bilməyiblər.

Mayın 22-də IV İslam Həmrəyliyi Oyunlarının möhtəşəm bağlanış mərasimi keçirilib. Mərasimdə Azərbaycanın zəngin irsi göz önündə canlandırılıb, qəlblərimizə hərarət gətirən giləvarın mülayim nəfəsi duyulan küləklər şəhəri Bakıya xoş nəzər salınıb. Səhnə elementləri İslam incəsənətinin bənzərsiz həndəsi naxışlarına və ənənəvi Azərbaycan xalçalarının bəzəklərinə əsaslanıb. Səhnənin mərkəzində döymə üsulu ilə hazırlanmış və hamarlanmış böyük su sinisi və 25 metrlik “həyat ağacı”





yerləşdirilib. Mərasim 1500 Azərbaycan könüllüsü tərəfindən canlandırılıb. Stadiondakı ekranlarda nümayiş etdirilən videoçarxda qızılı toz giləvarın əsməsi isə bütün Azərbaycana yayılıb. Başqa sözlə, Bakının İçərişəhərində gənc qadın qızılı tozu havaya üfürüb, giləvar onu qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan ölkəyə hörmət əlaməti kimi hər qapını açaraq, bütün Azərbaycana yayıb. Sonra isə 10-dan 1-ə geriyə sayılaraq, “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə start verilib. Azərbaycan Prezi-denti İlham Əliyev, Birinci vitse-prezident və “Bakı-2017” Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdüləziz Al Nasser mərasimdə iştirak ediblər. Azərbaycan bayrağı Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının səkkiz hərbçisi tərəfindən gətirilib. Stadionun damından Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq olub. “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarının milli bayraqları idmançılar tərəfindən gətirilib. Atletlərin paradı olub, Azərbaycanın idmançıları stadiona axırıncı daxil olublar. Bayraqlar gətirildiyi zaman “Amarok” qrupunun ifasında “Naxçıvan halayı” səsləndirilib. Daha sonra “həyat ağacı”na su verilib və onun kökləri səhnədə çıxmağa başlayıb. Son 10 günün idman yarışları stadiondakı ekranlarda nümayiş etdirilib. Daha sonra “Qarabağ” şikəstəsi altında səhnədə Günəş qalxıb və səhnə üzərində hərəkət edib. Günəşin şüası aşağıda tamaşaya start verib. Kitab formasında bir-biri ilə birləşdirilmiş 1000-dən artıq əlvan üçbucaq iki böyük altıbucaq formalaşdırıb. Bu cür kitabın səhifələri “şəbəkə” sənətindən ilhamlanaraq, maraqlı naxışları yaratmaq üçün 110 səhnə iştirakçısı tərəfindən vərəqlənib. Gülarə Əliyeva “Şur fantaziyası” ifa etməyə başlayan zaman ekranda Bakı bulvarının gündəlik əyləncəli həyatından səhnələr görünüb. Səhnə iştirakçıları “Yallı” getdiyi zaman buludlar qalxıb. 1000-dən artıq hava şarı və “həyat ağacı”nın minlərlə yarpağı giləvarla gecə səmasına qaldırılıb. Aktyorların qlobusu saxlayan əlləri sülh rəmzi olan göyərçini formalaşdırıb. Sonra aktyorlar Azərbaycanın dekorativ incəsənətində və memarlığında mövcud olan və alov mənasını daşıyan qədim badamvari naxış olan buta fiqurlarını yaradıb. Oyunların uğurla keçirilməsini mümkün edən 6000 könüllünün verdiyi böyük töhfəni təsvir edən videoçarx nümayiş olunub.

Protokol səhnəsində Azərbaycanın Birinci vitse-prezidenti, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdüləziz Al Nasser çıxış ediblər.

Faisal Abdüləziz Al Nasser İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə “Bakı-2017”yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürünü bildirib.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi çıxışını bu sözlərlə tamamlayıb: “Dörd ildən sonra “İstanbul-2021” Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram. Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!”

Müstəqil Azərbaycanın növbəti beynəlxalq qələbəsi - IV İslam Həmrəyliyi Oyunlarının başa çatması münasibətilə hamını təbrik edən və təşəkkürünü bildirən Mehriban Əliyeva deyib ki, son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı: “Bakıda bizim üçün və hamı üçün əsl qələbə bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq”.

“Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq”,-deyən Təşkilat Komitəsinin sədri IV İslam Həmrəyliyi Oyunlarını bağlı elan edib.

Sonra stadion ekranlarında 2021-ci ildə İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edəcək İstanbul şəhərinə bütün dünyanı dəvət edən videoçarx nümayiş etdirilib. Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbçiləri ISSF-in bayrağını endiriblər. İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi bayrağı Türkiyə gənclər və idman nazirinin müavini, “İstanbul-2021” İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim edib. Əsas səhnədə iki mahnı - “Salam Bakı” - “Bakı-2017” könüllülərin himni və “Mən Azərbaycanlıyam” mahnıları səsləndirilib. Mərasim stadion üzərində gözəl atəşfəşanlıqla başa çatıb.

# “IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINA YEKUN, “FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ”NƏ HAZIRLIQ”LA ƏLAQƏDAR HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

***Mayın 26-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində Hərbi Şuranın IV İslam Həmrəyliyi Oyunları dövründə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətin aparılmasının nəticələri və “Formula-1 Azərbaycan Qran-Prisi” yarışında xidmətlə əlaqədar qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.***

İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov iştirak edib. Bakı qarnizonunda yerləşən hərbi hissələrin komandirləri, hərbi hissə komandirlərinin 1-ci müavinləri - qərargah rəisləri, dəstə komandirləri iclasa dəvət olunublar.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov gündəlikdə duran məsələləri elan etdikdən sonra qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı inkişafının, durmadan artan beynəlxalq nüfuzunun, habelə tərəqqi proseslərinə zəmin yaradan ictimai asayişin və sabitliyin qorunmasının məntiqi nəticəsi olaraq, İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyasının qərarına əsasən, 2017-ci ilin may ayının 12-dən 22-dək ölkəmizdə IV İslam Həmrəyliyi Oyunları keçirilib. Oyunlar ərəfəsi və zamanı Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş tapşırıqlar tam həcmdə yerinə yetirilib, hər hansı ciddi nöqsana yol verilməyib.

Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilov məruzə ilə çıxış edərək IV İslam Həmrəyliyi Oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması, 13 yarış və 5 qeyri-yarış obyektində xidmətin təşkili və aparılması ilə əlaqədar məlumat verib.




Bildirilib ki, “Formula-1 Azərbaycan Qran-Prisi” yarışının keçirilməsi zamanı da digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai təhlükəsizliyin təmin edilməsi və ictimai qaydanın qorunması üzrə tapşırıqların yerinə yetirilməsi ilə bağlı Daxili Qoşunlarda ciddi hazırlıq işləri görülür.

Sonra məruzə ətrafında çıxış edən Daxili Qoşunların Qərargah rəisinin 1-ci müavini polkovnik Tofiq Hüseynov, Maddi-texniki təminat İdarəsinin Qərargah rəisi - İdarə rəisinin müavini polkovnik Rəşadət Nəbiyev, Şəxsi heyət üzrə İdarədə Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, oyunlar zamanı xidmətə cəlb olunan hərbi hissələrin komandirləri fəaliyyət istiqamətləri və aidiyyəti üzrə tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar təfsilatı ilə məlumat veriblər. Çıxış edənlər “Formula-1 Azərbaycan Qran-Prisi” yarışının keçirilməsinə hazırlıq işləri barədə məlumat verərək, üzərlərinə düşən vəzifənin məsuliyyətini düzgün qiymətləndirdiklərini bildirib, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanını əmin ediblər ki, yarışda müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar xidmətin təşkili və aparılması təmin olunacaqdır.

General-leytenant Ş.Məmmədov iclasda yekun nitqi söyləyərək bildirib ki, məruzələrdən və çıxışlardan da göründüyü kimi, IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş tapşırıqların Daxili Qoşunların şəxsi heyəti tərəfindən yerinə yetirilməsi qənaətbəxş olub. O, qarşıdan gələn “Formula-1 Azərbaycan Qran-Prisi” yarışı ilə bağlı vəzifələrin icrasına məsuliyyətlə yanaşılmasını, bütün sahələr üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsini tələb edib.

Qarşıya qoyulmuş tapşırıqların icrasında şəxsi heyətə uğurlar arzu edən cənab Komandan vurğulayıb ki, “Formula-1 Azərbaycan Qran-Prisi” kimi mötəbər yarışda xidmətin aparılmasının digər aidiyyəti qurumlarla yanaşı, Daxili Qoşunlara da həvalə olunması dövlət rəhbərliyi səviyyəsində qoşunlara olan etimadın təzahürüdür. O, xüsusi olaraq diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti, zati aliləri cənab İlham Əliyevin daima göstərdiyi diqqət sayəsində dövlət qayğısı ilə əhatə olunmuş, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun rəhbərliyi altında inkişaf edən Daxili Qoşunlar bu etimadı doğruldaraq, üzərinə düşən vəzifələri tam yerinə yetirməklə xalqına, dövlətinə və Prezidentinə sadiq olmasını bir daha nümayiş etdirəcəkdir.

**Mətbuat xidməti**

